# Vətən müharibəsi

Azərbaycan 30 ilə yaxın müddətdə ərazisinin 20%-ini işğal edən Ermənistanla danışıqlar apararaq Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə nizamlamağa çalışdı. Danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın şəkildə müşahidə edildi ki, Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyir, status-kvonu möhkəmləndirməyə, əbədi etməyə çalışır. Azərbaycan işğalla barışa bilməzdi və barışmadı.

Ötən müddət ərzində ümummilli lider Heydər Əliyev uzaqgörənlilik və müdrikliklə Azərbaycanın hərtərəfli inkişafı, siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi üçün böyük işlər gördü, sağlam təməllər yaratdı.



Bu yolu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin ərazi bütövlüyünün bərpası üçün ilk növbədə, iqtisadi gücün vacibliyini bəyan etdi. Düzgün strategiya və düşünülmüş məqsədyönlü siyasət nəticəsində Azərbaycan güc toplamağa başladı, iqtisadi müstəqillik təmin edildi, Azərbaycan iqtisadi cəhətdən heç kimdən, heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı olmayan müasir dövlətə çevrildi, dünya üçün çox nadir inkişaf modelini yaratdı. Ölkənin iqtisadi cəhətdən yüksəlişi ordu quruculuğunda da dönüşə səbəb oldu, Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə gücləndirildi, hərbçilərin bilik və bacarıqları artırıldı, onların sosial müdafiəsinin, iş şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Azərbaycanın müdafiə sənayesi inkişaf etdirildi, ordunun daxili tələbatının böyük hissəsi daxili istehsal hesabına təmin olundu, Azərbaycan 1000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal etməyə başladı və ən müasir silahların ixracatçısına çevrildi. Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyəti Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlarda bütün dünyaya nümayiş etdirildi.

Ən əsası Azərbaycan xalqı ötən 30 illik dövr ərzində işğalla barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm göstərdi. Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən, formalaşan vətənpərvər gənclər Vətəni qorumaq üçün hər cür fədakarlığa hazır olduqlarını dönə-dönə sübut etdilər.

Ötən dövr ərzində çoxşaxəli, prinsipial, dürüst xarici siyasətin yürüdülməsi, beynəlxalq təşkilatlarla və xarici dövlətlərlə fəal işin aparılması, sıx əlaqələrin qurulması, həyata keçirilən regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi, ölkənin nüfuzunu artırdı, bölgədə Azərbaycanın iradəsi həlledici amilə çevrildi.

Bütün bu amillər Azərbaycanın mütləq Qələbəsini tam şərtləndirdi və onun əldə edilməsi zaman məsələsinə çevirdi.

Azərbaycan dəfələrlə Ermənistanı işğal etdiyi ərazisini geri qaytarmağa çağırdı, Ermənistan nəinki bu çağırışlara məhəl qoymadı, əksinə, yeni Azərbaycan torpaqlarını işğal etməyə həvəsləndi, ardıcıl hərbi təxribatlar törətmək yolunu seçdi.

Ermənistan danışıqlar prosesinin formatını və məzmununu məhv etməklə, danışıqların imitasiyasını aparmaqla, BMT TŞ-nın qətnamə və qərarlarının icra etməməklə sülh tərəfdarı olmadığını açıq şəkildə ortaya qoydu.

Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə” açıqlaması Ermənistanın işğalçılıq siyasətinin ən bariz etiraflarından birinə çevrildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatına “Qarabağ Azərbaycandır və nida işarəsi” deməklə sərt reaksiya verdi.

Prezident İlham Əliyev bu dövrü aydın şəkildə təsvir edir: “Bəli, onlar Dağlıq Qarabağı müstəqil dövlət adlandırdılar, növbəti mərhələdə yeni xəritələr çap etdilər və bütün ətraf rayonlarımızı Dağlıq Qarabağ adlandırmağa başladılar. Şəhər və kəndlərimizin adları dəyişdirildi və nəhayət, bizi yeni ərazilər uğrunda yeni müharibə ilə hədələməyə başladılar. Bunu deyən onların Tonoyan soyadlı müdafiə naziri idi. O bəyan etmişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır”.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək ona layiqli cavab verdi.

2020-ci ilin avqust ayında Ermənistan daha bir hərbi təxribata əl ataraq, terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi. Lakin Azərbaycan Ordusu bu təxribat planını da pozdu.

2020-ci il sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşması barədə dünya birliyini yenidən

xəbərdar etdi: “Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib… Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

Beləliklə, 2016-cı ilin Aprel döyüşlərindən, 2020-ci ilin İyul döyüşlərindən Ermənistanın hərbi-siyasi rəhbərliyi lazımi dərs çıxarmadı və vəziyyəti daha da gərginləşdirməyə davam etdi.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan “Dəmir Yumruq” adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi.



44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi.

Azərbaycan Prezidenti 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin gedişində xalqa ilk müraciətində bütün cəmiyyəti qəti qələbəyə kökləd: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

2020-ci il oktyabrın 4-dəki xalqa ikinci müraciətində Prezident İlham Əliyev düşmənə öz yerini göstərdi: “İndi biz göstərdik kim-kimdir… Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!”.

2020-ci il oktyabrın 9-dakı xalqa üçüncü müraciətində Azərbaycan Prezidenti status-kvonun artıq olmadığını və təmas xəttinin yarıldığını elan etdi: “Mən dəyişdirdim status–kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini… Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz”.

2020-ci il oktyabrın 17-də xalqa növbəti müraciətində Prezident İlham Əliyev raket hücumlarına məruz qalan Azərbaycan şəhərlərinin Ermənistanın dinc əhaliyə qarşı dövlət terrorizmi və vandalizminə müqavimət rəmzinə çevrildiyi mesajını verdi: “Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik”.

2020-ci il oktyabrın 20-də xalqa beşinci müraciətində Azərbaycan Prezidenti əldə edilən nəticələrin düşünülmüş və vaxtında atılmış addımların bəhrəsi olduğunu, tələskənliyin yolverilməzliyini diqqətə çatdırdı: “Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz “Twitter” hesabımda, “Twitter” vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm. Mən bilirəm ki, Azərbaycan xalqı bu xəbərləri hər gün gözləyir, hər gün! Hər gün, hər saat ki, nə vaxt bu xəbər olacaq, nə vaxt bu xəbər çıxacaq? Amma istəyirəm, əziz xalqım bilsin ki, hər kəndin, hər yüksəkliyin götürülməsi böyük rəşadət tələb edir. Çünki təkcə orada qurulmuş istehkamlar deyil, eyni zamanda, azad edilmiş torpaqların hərbi relyefi də ermənilər üçün daha sərfəlidir. Çünki biz indi həm onların istehkamlarına, onların toplarına, onların raketlərinə qarşı, eyni zamanda, təbii relyefə qarşı vuruşmalıyıq və torpaqlarımızı işğalçılardan qarış-qarış azad edirik”.

2020-ci il oktyabrın 26-da xalqa altıncı müraciətində dövlət başçısı Azərbaycan xalqını həlledici qələbəyə yaxın olduğunun müjdəsini verdi: “Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik”.

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi yazıldı. Prezident İlham Əliyev xalqa sayca yeddinci müraciətini Şəhidlər xiyabanından edərək Şuşa şəhərinin işğaldan azad olunmasını Azərbaycan xalqına, bütün dünya azərbaycanlılarına elan etdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! …Bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq… Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!”.



Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox yaşayış məntəqəsi də işğaldan azad edildi, düşmən diz çökdürüldü, onun kapitulyasiya aktına imza atmaqdan başqa çıxış yolu qalmadı.

2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktı - **“Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı”** imzalandı. Həmin gün xalqa sayca səkkizinci müraciətində İlham Əliyev milli şüara çevrilmiş “Qarabağ Azərbaycandır və nida” ifadəsinin artıq bütün Qarabağı əhatə etdiyini və Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğunu elan etdi: “…nə oldu bəs status? …yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!”.



Azərbaycan Prezidenti müharibə nəticəsinin Azərbaycan və Ermənistan arasındakı fərqi anlamaq üçün ən yaxşı nümunə olduğunu bildirdi: “Bizdə bir nəfər fərari oldumu? Olmadı! Bir nəfər də olmadı! Budur Azərbaycan xalqı! Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın insanını itirib, yenə də deyir ki, “Vətən sağ olsun”. Ancaq irəli, irəli! Mənə yazılan məktublarda deyilir, Ali Baş Komandan, irəli! Dəstəkləyirik səni, get irəli, dayanma və getmişəm, dayanmamışam”.

Prezident İlham Əliyev, həmçinin informasiya cəbhəsində Ermənistanın bütün təbliğatının üzərindən dünyanın aparıcı media qurumlarına müsahibələri ilə xətt çəkdi: “Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm …o müsahibələrdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı düşməndən aldıq, işğalçıdan aldıq. Mülki vətəndaşlarla bizim işimiz olmayıb və olmayacaq. Düşmənin məskunlaşdığı, gizləndiyi şəhərlərdə böyük dağıntılar yoxdur. Çünki biz mülki obyektlərə atəş açmamışıq. Bax, bizim fərqimiz bundan ibarətdir”.

## Ermənistan qoşunlarının döyüş itkiləri

| Sıra №-si | İtkilər | Cəmi |
|---|---|---|
| 1. | Şəxsi heyət | 10000-ə qədər |
| 2. | Tank | 287 |
| 3. | PDM | 66 |
| 4. | PDM-K | 3 |
| 5. | 152 mm-lik ÖAQ (2S3 Akasiya) | 14 |
| 6. | 122-lik ÖAQ (2S1 Qvozdika) | 14 |
| 7. | Top (müxtəlif çaplı) | 315 |
| 8. | Minaatan (müxtəlif çaplı)/TƏV | 63/53 |
| 9. | 300 mm-lik BM-30 ("Smerç") | 4 |
| 10. | SU-25 təyyarə | 5 |
| 11. | 122 mm-lik BM-21 ("Qrad") | 97 |
| 12. | 220 mm-lik "Uraqan" | 2 |
| 13. | 273 mm-lik WM 80 YARS | 2 |
| 14. | 220 mm-lik TOS (sursatı ilə birlikdə) | 2 |
| 15. | S-300 ZRK atıcı qurğusu | 7 |
| 16. | S-300 ZRK işıqlandırma və yönəltmə r/lokatoru | 1 |
| 17. | S-300 ZRK RL aşkaretmə stansiyası | 2 |
| 18. | 5N84 (Oborona) RLS | 1 |
| 19. | ZRK "Tor" | 6 |
| 20. | ZRK "Osa" | 38 |
| 21. | ZRK "Osa" doldurucu qurğu | 1 |
| 22. | ZRK KUB atıcı qurğusu | 2 |
| 23. | ZRK KUB İKT stansiyası | 2 |
| 24. | ZRK KRUQ RTS | 1 |
| 25. | ZRK S-125 antena postu (UNV-2D) | 2 |
| 26. | ZQ M55 Zastava (MTLB üzərində) | 5 |
| 27. | ZQ-23-2/4 (MTLB üzərində) | 9 |
| 28. | PUA | 22 |
| 29. | ƏTRK "ELBRUS" (raket) | 2 |
| 30. | Ballistik raket | 2 |
| 31. | "TOÇKA-U" raket kompleksi | 1 |
| 32. | PMZ (mina döşəyən) | 1 |
| 33. | REM (RTK) vasitəsi /Retranslyator | 5/1 |
| 34. | R-142 (komanda-qərargah maşını), dizel aqreqatı | 2/1 |

| | | |
|---|---|---|
| 35. | NEBO-M (hava hədəfləri RLS) | 1 |
| 36. | P-19 radiolokasiya stansiyası | 1 |
| 37. | P-18 radiolokasiya stansiyası/antena postu | 3/1 |
| 38. | 19J6 radiolokasiya stansiyası | 3 |
| 39. | Repellent (radiotexniki maneə vasitəsi) | 4 |
| 40. | Yük avtomobili (22 sursatlı), minik avtomobili | 253/46 |
| 41. | PİKAP avtomobil/xüsusi avtomobil | 5/1 |
| 42. | MTLB | 3 |

## Azərbaycan Ordusunun düşməndən ələ keçirdiyi hərbi qənimətlər

| Sıra №-si | Hərbi qənimətlər | Cəmi |
|---|---|---|
| 1. | Döyüş sursatları (müxtəlif çaplı) | 2994285 |
| 2. | Tank | 101 |
| 3. | PDM | 63 |
| 4. | PDM KŞ | 1 |
| 5. | BRDM-2 | 8 |
| 6. | Top və haubitsalar | 169 |
| 7. | Minaatan | 64 |
| 8. | TƏİRK | 97 |
| 9. | Tank əleyhinə idarəolunan raketlər | 358 |
| 10. | Qumbaraatan | 635 |
| 11. | Atıcı silahlar | 3615 |
| 12. | Şilka ZQ-23-4 | 11 |
| 13. | KUB-2K12 (ZRK-nın 1RL-93 raket tuşlama stansiyası) | 1 |
| 14. | KUB-2K12 (ZRK-nın atıcı qurğusu) | 1 |
| 15. | 3M9M3 tipli məmulat İZR-i (raket) | 3 |
| 16. | 9M331 TOR kompleksi (9M334 tipli tara) | 6 |
| 17. | 9M331 TOR kompleksi İZR-i (raketi) | 21 |
| 18. | 9M33M2, 9M33M3 tipli məmulat İZR-i (raket) | 31 |
| 19. | OSA döyüş maşını | 1 |
| 20. | 9T217BM3 tipli nəqliyyat doldurucu maşın | 2 |
| 21. | “İqla-S”, “İqla”, “İqla-1” məmulatı | 138 |
| 22. | “Strela-2” məmulatı | 6 |
| 23. | “İqla-S”, “İqla”, “İqla-1”, “Strela-2” buraxıcı mexanizm | 55 |
| 24. | Minik avtomobili | 120 |

| | | |
|---|---|---|
| 25. | Yük avtomobili | 512 |
| 26. | Xüsusi avtomobil | 94 |
| 27. | Qoşqu | 47 |
| 28. | BTS – 4 | 5 |
| 29. | MTLB | 48 |
| 30. | BRM-1K | 6 |
| 31. | ÖAQ (2S1 Qvozdika) | 12 |
| 32. | Traktor | 10 |

Bundan başqa, düşmənin 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdıldı.

Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon – noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi. Bu münasibətlə Azərbaycan Prezidenti dekabrın 1-də xalqa müraciətində deyib: “Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq”.

Beləliklə, Ermənistan hərbi birləşmələrinin 4 il ərzində tədricən işğal etdiyi və 30 ilə yaxın dövr ərzində işğalda saxlayaraq ərazisində güclü hərbi istehkamlar, maneələr, müdafiə xətləri qurduğu Azərbaycan torpaqları 44 gün ərzində azad edildi. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu, Ermənistan-Azərbaycan münaqişəsi tarixə çevrildi.

Vətən müharibəsində Azərbaycan parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü Azərbaycanın şanlı tarixidir.

## Vətən müharibəsi dövründə yaşayış məntəqələrinin və yüksəkliklərin işğaldan azad edilmə xronologiyası:

| № | TARİX | RAYON | YAŞAYIŞ MƏNTƏQƏSİ |
|---|---|---|---|
| 1. | 27.09.2020 | Füzuli | Qaraxanbəyli |
| 2. | 27.09.2020 | Füzuli | Qərvənd |
| 3. | 27.09.2020 | Füzuli | Horadiz kəndi |
| 4. | 27.09.2020 | Cəbrayıl | Böyük Mərcanlı |
| 5. | 27.09.2020 | Cəbrayıl | Nüzgar |
| 6. | 27.09.2020 | Kəlbəcər | Murovdağ zirvəsi |
| 7. | 03.10.2020 | Cəbrayıl | Mehdili |
| 8. | 03.10.2020 | Cəbrayıl | Çaxırlı |
| 9. | 03.10.2020 | Cəbrayıl | Aşağı Maralyan |
| 10. | 03.10.2020 | Cəbrayıl | Şəybəy |
| 11. | 03.10.2020 | Cəbrayıl | Quycaq |
| 12. | 03.10.2020 | Füzuli | Aşağı Əbdürrəhmanlı |
| 13. | 03.10.2020 | Tərtər | Suqovuşan |
| 14. | 03.10.2020 | Tərtər | Talış |
| 15. | 04.10.2020 | Cəbrayıl | Cəbrayıl ş. |
| 16. | 04.10.2020 | Cəbrayıl | Şükürbəyli |
| 17. | 04.10.2020 | Cəbrayıl | Çərəkən |
| 18. | 04.10.2020 | Cəbrayıl | Daşkəsən |
| 19. | 04.10.2020 | Cəbrayıl | Horovlu |
| 20. | 04.10.2020 | Cəbrayıl | Mahmudlu (kənd) |
| 21. | 04.10.2020 | Cəbrayıl | Cəfərabad |
| 22. | 04.10.2020 | Cəbrayıl | Yuxarı Maralyan |
| 23. | 04.10.2020 | Cəbrayıl | Dəjəl |
| 24. | 04.10.2020 | Cəbrayıl | Karxulu |
| 25. | 05.10.2020 | Cəbrayıl | Şıxalıağalı |
| 26. | 05.10.2020 | Cəbrayıl | Sarıcallı |
| 27. | 05.10.2020 | Cəbrayıl | Məzrə |
| 28. | 09.10.2020 | Cəbrayıl | Qışlaq |
| 29. | 09.10.2020 | Tərtər | Çaylı |
| 30. | 09.10.2020 | Cəbrayıl | Qaracallı |
| 31. | 09.10.2020 | Cəbrayıl | Əfəndilər |
| 32. | 09.10.2020 | Cəbrayıl | Süleymanlı |
| 33. | 09.10.2020 | Füzuli | Yuxarı Güzlək |

| | | | |
|---|---|---|---|
| 34. | 09.10.2020 | Füzuli | Gorazıllı |
| 35. | 09.10.2020 | Xocavənd | Hadrut q. |
| 36. | 09.10.2020 | Xocavənd | Sor |
| 37. | 14.10.2020 | Füzuli | Qaradağlı |
| 38. | 14.10.2020 | Füzuli | Xatınbulaq |
| 39. | 14.10.2020 | Füzuli | Qarakollu |
| 40. | 14.10.2020 | Xocavənd | Bulutan |
| 41. | 14.10.2020 | Xocavənd | Məlikcanlı |
| 42. | 14.10.2020 | Xocavənd | Qırmızıqaya |
| 43. | 14.10.2020 | Xocavənd | Dağdöşü |
| 44. | 14.10.2020 | Xocavənd | Tağaser |
| 45. | 15.10.2020 | Füzuli | Arış |
| 46. | 15.10.2020 | Cəbrayıl | Doşulu |
| 47. | 15.10.2020 | Xocavənd | Edişə |
| 48. | 15.10.2020 | Xocavənd | Düdükçü |
| 49. | 15.10.2020 | Xocavənd | Edilli |
| 50. | 15.10.2020 | Xocavənd | Çiraquz |
| 51. | 16.10.2020 | Xocavənd | Xırmancıq |
| 52. | 16.10.2020 | Xocavənd | Ağbulaq |
| 53. | 16.10.2020 | Xocavənd | Axullu |
| 54. | 17.10.2020 | Füzuli | Füzuli ş. |
| 55. | 17.10.2020 | Füzuli | Qoçəhmədli |
| 56. | 17.10.2020 | Füzuli | Cuvarlı |
| 57. | 17.10.2020 | Füzuli | Pirəhmədli |
| 58. | 17.10.2020 | Füzuli | Musabəyli |
| 59. | 17.10.2020 | Füzuli | Çimən |
| 60. | 17.10.2020 | Füzuli | İşıqlı |
| 61. | 17.10.2020 | Füzuli | Dədəli |
| 62. | 18.10.2020 | Cəbrayıl | Hacılı |
| 63. | 18.10.2020 | Cəbrayıl | Hacı İsaqlı |
| 64. | 18.10.2020 | Cəbrayıl | Xudafərin q. |
| 65. | 19.10.2020 | Cəbrayıl | Soltanlı |
| 66. | 19.10.2020 | Cəbrayıl | Əmirvarlı |
| 67. | 19.10.2020 | Cəbrayıl | Maşanlı |
| 68. | 19.10.2020 | Cəbrayıl | Hasanlı |
| 69. | 19.10.2020 | Cəbrayıl | Alıkeyxalı |
| 70. | 19.10.2020 | Cəbrayıl | Qumlaq |
| 71. | 19.10.2020 | Cəbrayıl | Göyərçin Veysəlli |
| 72. | 19.10.2020 | Cəbrayıl | Niyazqulular |

| | | | |
|---|---|---|---|
| 73. | 19.10.2020 | Cəbrayıl | Keçəl Məmmədli |
| 74. | 19.10.2020 | Cəbrayıl | Şahvəlli |
| 75. | 19.10.2020 | Cəbrayıl | İsaqlı |
| 76. | 20.10.2020 | Füzuli | Dördçinar |
| 77. | 20.10.2020 | Füzuli | Kürdlər |
| 78. | 20.10.2020 | Füzuli | Yuxarı Əbdurrəhmanlı |
| 79. | 20.10.2020 | Füzuli | Qarğabazar |
| 80. | 20.10.2020 | Füzuli | Aşağı Veysəlli |
| 81. | 20.10.2020 | Füzuli | Yuxarı Aybasanlı |
| 82. | 20.10.2020 | Cəbrayıl | Safarşa |
| 83. | 20.10.2020 | Cəbrayıl | Həsənqaydı |
| 84. | 20.10.2020 | Cəbrayıl | Fuğanlı |
| 85. | 20.10.2020 | Cəbrayıl | İmambağı |
| 86. | 20.10.2020 | Cəbrayıl | Daş Veysəlli |
| 87. | 20.10.2020 | Cəbrayıl | Ağtəpə |
| 88. | 20.10.2020 | Cəbrayıl | Yarəhmədli |
| 89. | 20.10.2020 | Xocavənd | Ağcakənd |
| 90. | 20.10.2020 | Xocavənd | Mülküdərə |
| 91. | 20.10.2020 | Xocavənd | Daşbaşı |
| 92. | 20.10.2020 | Xocavənd | Günəşli |
| 93. | 20.10.2020 | Xocavənd | Çinarlı |
| 94. | 20.10.2020 | Zəngilan | Zəngilan ş. |
| 95. | 20.10.2020 | Zəngilan | Havalı |
| 96. | 20.10.2020 | Zəngilan | Məmmədbəyli |
| 97. | 20.10.2020 | Zəngilan | Həkəri q. |
| 98. | 20.10.2020 | Zəngilan | Şərifan |
| 99. | 20.10.2020 | Zəngilan | Muğanlı |
| 100. | 21.10.2020 | Füzuli | Gecəgözlü |
| 101. | 21.10.2020 | Füzuli | Aşağı Seyidəhmədli |
| 102. | 21.10.2020 | Füzuli | Zərgər |
| 103. | 21.10.2020 | Cəbrayıl | Balyand |
| 104. | 21.10.2020 | Cəbrayıl | Papı |
| 105. | 21.10.2020 | Cəbrayıl | Tulus |
| 106. | 21.10.2020 | Cəbrayıl | Tinli |
| 107. | 21.10.2020 | Zəngilan | Mincivan q. |
| 108. | 21.10.2020 | Zəngilan | Babaylı |
| 109. | 21.10.2020 | Zəngilan | Üçüncü Ağalı |
| 110. | 21.10.2020 | Zəngilan | Sarıl |
| 111. | 21.10.2020 | Zəngilan | Xumarlı |

| | | | |
|---|---|---|---|
| 112. | 21.10.2020 | Zəngilan | Hacallı |
| 113. | 21.10.2020 | Zəngilan | Xurama |
| 114. | 21.10.2020 | Zəngilan | Cahangirbəyli |
| 115. | 21.10.2020 | Zəngilan | Turabad |
| 116. | 21.10.2020 | Zəngilan | İçəri Müşlan |
| 117. | 21.10.2020 | Zəngilan | Qıraq Müşlan |
| 118. | 21.10.2020 | Zəngilan | Məlikli |
| 119. | 21.10.2020 | Zəngilan | Üdgün |
| 120. | 21.10.2020 | Zəngilan | Baharlı |
| 121. | 22.10.2020 | Füzuli | Mollavəli |
| 122. | 22.10.2020 | Füzuli | Yuxarı Rəfədinli |
| 123. | 22.10.2020 | Füzuli | Aşağı Rəfədinli |
| 124. | 22.10.2020 | Cəbrayıl | Sirik |
| 125. | 22.10.2020 | Cəbrayıl | Şıxlar |
| 126. | 22.10.2020 | Cəbrayıl | Məstalıbəyli |
| 127. | 22.10.2020 | Cəbrayıl | Dərzili |
| 128. | 22.10.2020 | Zəngilan | Kolluqışlaq |
| 129. | 22.10.2020 | Zəngilan | Malatkeşin |
| 130. | 22.10.2020 | Zəngilan | Zəngilan (kənd) |
| 131. | 22.10.2020 | Zəngilan | Genlik |
| 132. | 22.10.2020 | Zəngilan | Vəliqulubəyli |
| 133. | 22.10.2020 | Zəngilan | Qaradərə |
| 134. | 22.10.2020 | Zəngilan | Çöpədərə |
| 135. | 22.10.2020 | Zəngilan | Tatar |
| 136. | 22.10.2020 | Zəngilan | Tiri |
| 137. | 22.10.2020 | Zəngilan | Əmirxanlı |
| 138. | 22.10.2020 | Zəngilan | Qarqulu |
| 139. | 22.10.2020 | Zəngilan | Bartaz (kənd) |
| 140. | 22.10.2020 | Zəngilan | Dəlləkli |
| 141. | 22.10.2020 | Zəngilan | Ağbənd q. |
| 142. | 23.10.2020 | Xocavənd | Dolanlar |
| 143. | 23.10.2020 | Xocavənd | Bünyadlı |
| 144. | 23.10.2020 | Cəbrayıl | Dağ Tumas |
| 145. | 23.10.2020 | Cəbrayıl | Nüsüs |
| 146. | 23.10.2020 | Cəbrayıl | Xələfli q. |
| 147. | 23.10.2020 | Cəbrayıl | Minbaşılı |
| 148. | 23.10.2020 | Zəngilan | Vənədli |
| 149. | 23.10.2020 | Zəngilan | Mirzəhəsənli |
| 150. | 23.10.2020 | Qubadlı | Zilanlı |

| | | | |
|---|---|---|---|
| 151. | 23.10.2020 | Qubadlı | Kürd Mahruzlu |
| 152. | 23.10.2020 | Qubadlı | Muğanlı |
| 153. | 23.10.2020 | Qubadlı | Alaqurşaq |
| 154. | 25.10.2020 | Zəngilan | Birinci Alıbəyli |
| 155. | 25.10.2020 | Zəngilan | İkinci Alıbəyli |
| 156. | 25.10.2020 | Zəngilan | Rəbənd |
| 157. | 25.10.2020 | Zəngilan | Yenikənd |
| 158. | 25.10.2020 | Cəbrayıl | Qovşudlu |
| 159. | 25.10.2020 | Cəbrayıl | Sofulu |
| 160. | 25.10.2020 | Cəbrayıl | Dağ Maşanlı |
| 161. | 25.10.2020 | Cəbrayıl | Kürdlər |
| 162. | 25.10.2020 | Cəbrayıl | Hovuslu |
| 163. | 25.10.2020 | Qubadlı | Padar |
| 164. | 25.10.2020 | Qubadlı | Əfəndilər |
| 165. | 25.10.2020 | Qubadlı | Yusifbəyli |
| 166. | 25.10.2020 | Qubadlı | Çaytumas |
| 167. | 25.10.2020 | Qubadlı | Xanlıq |
| 168. | 25.10.2020 | Qubadlı | Sarıyataq |
| 169. | 25.10.2020 | Qubadlı | Mollabürhan |
| 170. | 25.10.2020 | Qubadlı | Qubadlı ş. |
| 171. | 26.10.2020 | Cəbrayıl | Çələbilər |
| 172. | 28.10.2020 | Zəngilan | Birinci Ağalı |
| 173. | 28.10.2020 | Zəngilan | İkinci Ağalı |
| 174. | 28.10.2020 | Zəngilan | Zərnəli |
| 175. | 28.10.2020 | Füzuli | Mandılı |
| 176. | 28.10.2020 | Cəbrayıl | Qazanzəmi |
| 177. | 28.10.2020 | Cəbrayıl | Xanağabulaq |
| 178. | 28.10.2020 | Cəbrayıl | Çullu |
| 179. | 28.10.2020 | Cəbrayıl | Quşçular |
| 180. | 28.10.2020 | Cəbrayıl | Qaraağac |
| 181. | 28.10.2020 | Qubadlı | Qiyaslı |
| 182. | 28.10.2020 | Qubadlı | Əbilcə |
| 183. | 28.10.2020 | Qubadlı | Qilican |
| 184. | 30.10.2020 | Cəbrayıl | Xudaverdili |
| 185. | 30.10.2020 | Cəbrayıl | Qurbantəpə |
| 186. | 30.10.2020 | Cəbrayıl | Şahvələdli |
| 187. | 30.10.2020 | Cəbrayıl | Xubyarlı |
| 188. | 30.10.2020 | Zəngilan | Aladin |
| 189. | 30.10.2020 | Zəngilan | Vejnəli |

| | | | |
|---|---|---|---|
| 190. | 30.10.2020 | Qubadlı | Kavdadıq |
| 191. | 30.10.2020 | Qubadlı | Məmər |
| 192. | 30.10.2020 | Qubadlı | Mollalı |
| 193. | 02.11.2020 | Cəbrayıl | Çapand |
| 194. | 02.11.2020 | Cəbrayıl | Qoşabulaq |
| 195. | 02.11.2020 | Zəngilan | Dərə Gilətağ |
| 196. | 02.11.2020 | Zəngilan | Böyük Gilətağ |
| 197. | 02.11.2020 | Qubadlı | İşıqlı |
| 198. | 02.11.2020 | Qubadlı | Muradxanlı |
| 199. | 02.11.2020 | Qubadlı | Milanlı |
| 200. | 04.11.2020 | Cəbrayıl | Mirək |
| 201. | 04.11.2020 | Cəbrayıl | Kavdar |
| 202. | 04.11.2020 | Zəngilan | Məşədiismayıllı |
| 203. | 04.11.2020 | Zəngilan | Şəfibəyli |
| 204. | 04.11.2020 | Qubadlı | Başarat |
| 205. | 04.11.2020 | Qubadlı | Qarakişilər |
| 206. | 04.11.2020 | Qubadlı | Qaracallı |
| 207. | 07.11.2020 | Füzuli | Yuxarı Veysəlli |
| 208. | 07.11.2020 | Füzuli | Yuxarı Seyidəhmədli |
| 209. | 07.11.2020 | Füzuli | Qorqan |
| 210. | 07.11.2020 | Füzuli | Üçüncü Mahmudlu |
| 211. | 07.11.2020 | Füzuli | Qacar |
| 212. | 07.11.2020 | Füzuli | Divanalılar |
| 213. | 07.11.2020 | Cəbrayıl | Yuxarı Məzrə |
| 214. | 07.11.2020 | Cəbrayıl | Yanarxac |
| 215. | 07.11.2020 | Qubadlı | Qəzyan |
| 216. | 07.11.2020 | Qubadlı | Balasoltanlı |
| 217. | 07.11.2020 | Qubadlı | Mərdanlı |
| 218. | 07.11.2020 | Zəngilan | Beşdəli |
| 219. | 07.11.2020 | Xocalı | Qarabulaq |
| 220. | 07.11.2020 | Xocalı | Baharlı |
| 221. | 07.11.2020 | Xocavənd | Ataqut |
| 222. | 07.11.2020 | Xocavənd | Hünərli |
| 223. | 08.11.2020 | Şuşa | Şuşa ş. |
| 224. | 09.11.2020 | Füzuli | Qobu Dilağarda |
| 225. | 09.11.2020 | Füzuli | Yal Pirəhmədli |
| 226. | 09.11.2020 | Füzuli | Yuxarı Yağlıvənd |
| 227. | 09.11.2020 | Füzuli | Dilağarda |
| 228. | 09.11.2020 | Füzuli | Seyidmahmudlu |

| | | | |
|---|---|---|---|
| 229. | 09.11.2020 | Füzuli | Ələsgərli |
| 230. | 09.11.2020 | Füzuli | Aşağı Güzlək |
| 231. | 09.11.2020 | Füzuli | Govşatlı |
| 232. | 09.11.2020 | Füzuli | Mirzəcamallı |
| 233. | 09.11.2020 | Füzuli | Şəkərcik |
| 234. | 09.11.2020 | Füzuli | Merdinli |
| 235. | 09.11.2020 | Füzuli | Şıxlı |
| 236. | 09.11.2020 | Füzuli | Qaraməmmədli |
| 237. | 09.11.2020 | Füzuli | Dövlətyarlı |
| 238. | 09.11.2020 | Füzuli | Hüseynbəyli |
| 239. | 09.11.2020 | Füzuli | Saracıq |
| 240. | 09.11.2020 | Xocalı | Dəmirçilər |
| 241. | 09.11.2020 | Xocalı | Çanaqçı |
| 242. | 09.11.2020 | Xocalı | Mədətkənd |
| 243. | 09.11.2020 | Xocalı | Sığnaq |
| 244. | 09.11.2020 | Şuşa | Daşaltı |
| 245. | 09.11.2020 | Xocavənd | Susanlıq |
| 246. | 09.11.2020 | Xocavənd | Binə |
| 247. | 09.11.2020 | Xocavənd | Tuğ |
| 248. | 09.11.2020 | Xocavənd | Ağdam |
| 249. | 09.11.2020 | Xocavənd | Azıx |
| 250. | 09.11.2020 | Xocavənd | Böyük Tağlar |
| 251. | 09.11.2020 | Xocavənd | Salakətin |
| 252. | 09.11.2020 | Xocavənd | Zoğalbulaq |
| 253. | 09.11.2020 | Xocavənd | Arakül |
| 254. | 09.11.2020 | Xocavənd | Tağaverd |
| 255. | 09.11.2020 | Xocavənd | Zərdanaşen |
| 256. | 09.11.2020 | Xocavənd | Şexer |
| 257. | 09.11.2020 | Cəbrayıl | Hüseynalılar |
| 258. | 09.11.2020 | Cəbrayıl | Söyüdlü |
| 259. | 09.11.2020 | Cəbrayıl | Aşağı Sirik |
| 260. | 09.11.2020 | Cəbrayıl | Qalacıq |
| 261. | 09.11.2020 | Cəbrayıl | Molla Həsənli |
| 262. | 09.11.2020 | Cəbrayıl | Əsgərxanlı |
| 263. | 09.11.2020 | Cəbrayıl | Yuxarı Nüsüs |
| 264. | 09.11.2020 | Cəbrayıl | Aşıq Məlikli |
| 265. | 09.11.2020 | Cəbrayıl | Niftalılar |
| 266. | 09.11.2020 | Cəbrayıl | Qərər |
| 267. | 09.11.2020 | Qubadlı | Yuxarı Mollu |

| | | | |
|---|---|---|---|
| 268. | 09.11.2020 | Qubadlı | Aşağı Mollu |
| 269. | 09.11.2020 | Qubadlı | Xocik |
| 270. | 09.11.2020 | Qubadlı | Qaraimanlı |
| 271. | 09.11.2020 | Qubadlı | Xəndək |
| 272. | 09.11.2020 | Qubadlı | Həmzəli |
| 273. | 09.11.2020 | Qubadlı | Mahruzlu |
| 274. | 09.11.2020 | Qubadlı | Hal |
| 275. | 09.11.2020 | Qubadlı | Ballıqaya |
| 276. | 09.11.2020 | Qubadlı | Ulaşlı |
| 277. | 09.11.2020 | Qubadlı | Tinli |
| 278. | 09.11.2020 | Qubadlı | Xocahan |
| 279. | 09.11.2020 | Qubadlı | Boyunəkər |
| 280. | 09.11.2020 | Qubadlı | Qaraqoyunlu |
| 281. | 09.11.2020 | Qubadlı | Çərəli |
| 282. | 09.11.2020 | Zəngilan | Keçikli |
| 283. | 09.11.2020 | Zəngilan | Ördəkli |
| 284. | 09.11.2020 | Zəngilan | Sobu |
| 285. | 09.11.2020 | Zəngilan | Qaragöz |
| 286. | 09.11.2020 | Zəngilan | İsgəndərbəyli |
| 287. | 09.11.2020 | Zəngilan | Bartaz q. |
| 288. | 09.11.2020 | Zəngilan | Bartaz (2300 m) |
| 289. | 09.11.2020 | Zəngilan | Sığırt (1370 m) |
| 290. | 09.11.2020 | Zəngilan | Şükürataz (2000 m) |
| 291. | 09.11.2020 | Laçın | Güləbird |
| 292. | 09.11.2020 | Laçın | Səfiyan |
| 293. | 09.11.2020 | Laçın | Türklər |
| 294. | 20.11.2020 | Ağdam | Ağdam |
| 295. | 25.11.2020 | Kəlbəcər | Kəlbəcər |
| 296. | 01.12.2020 | Laçın | Laçın |

Azərbaycan xalqı və dövləti Vətən uğrunda şəhid olan qəhrəman övladlarının işıqlı xatirəsini əziz tutur, onları daim xüsusi ehtiramla yad edir, qazilərin əməyini yüksək qiymətləndirir və onlarla qürur duyur.



Ermənistan ordusundan qənimət kimi götürülmüş texnikaların bir hissəsi 2020-ci il dekabrın 10-da Bakıda hərbi paradda nümayiş etdirilib, onlar həmçinin 2021-ci ilin aprelində Bakıda açılmış Hərbi Qənimətlər Parkında sərgilənir.



Vətən müharibəsi dünya hərb elmində həm də “XXI əsrin müharibəsi” adını qazanıb. Çətin relyef şəraitində düşmənin onilliklərlə qurduğu mürəkkəb istehkamlar qarşısında müzəffər Azərbaycan Ordusu əsl peşəkarlıq, məharət, yenilməz əzm nümayiş etdirib və ən əsası Vətənə sonsuz məhəbbətlə uğrunda hər cür fədakarlığa istənilən şəraitdə hazır olduğunu bütün dünyaya isbat edib.

## Böyük Qayıdış

Vətən müharibəsi Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyub, işğaldan azad edilmiş ərazilərdə ən müasir standartlarla bərpa və yenidənqurma işlərinə başlanılıb, Qarabağa həyat qayıdıb. Məhz Vətən müharibəsinin nəticəsi kimi Azərbaycanın Ermənistanla sərhəd xəttinin bərpasına başlanılıb və Zəngəzur dəhlizi yaxın müddətdə tarixi reallığa çevriləcək.

2021-ci il iyunun 15-də Şuşada imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında **Şuşa Bəyannaməsində** də Zəngəzur dəhlizinin açılmasının bölgənin həyatında yeni mərhələ olacağı öz əksini tapıb.



Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətini Prezident İlham Əliyev dəqiq ifadə edib: “Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”. XX əsrin sonlarında Heydər Əliyev demişdir: “Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir”. Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk. Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır.

Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir”.

2021-ci il iyulun 7-də imzalanmış daha bir tarixi sənəd - **“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı”** Vətən müharibəsinin əsas nəticələrindən birinə çevrildi. Bu Fərmanla Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmuş və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqlara malik Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları vahid iqtisadi rayonda – Şərqi Zəngəzur iqtisadi rayonunda birləşdirildi. Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsi Qarabağ iqtisadi rayonuna çevrildi. Beləliklə, SSRİ dövründə Azərbaycan xalqının üzləşdiyi daha bir tarixi ədalətsizliyi Prezident İlham Əliyev aradan qaldırdı: “…1923-cü ildə bizim ərazimizdə süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti, hansı ki, bunun yaradılmasının heç bir əsası yox idi… Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair Fərman imzalandı, tarixi ədalət bərpa edildi”.




Tezlikdə Qarabağ və Şərqi Zəngəzur cənnətə çevriləcək. Hazırda işğaldan azad edilmiş bütün ərazilər böyük quruculuq və bərpa dövrünü yaşayır, böyük qayıdışa hazırlaşır.